**"Bank Olmayan Kredit Təşkilatı "İnternational" Qapalı Səhmdar Cəmiyyətinin**

**2022-ci ilin idarəetmə**

**Hesabatı**

| | |
|---|---|
| 1. Emitentin tam və qısaldılmış adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN), dövlət qeydiyyatının tarixi və nömrəsi | "Bank Olmayan Kredit Təşkilatı "İnternational" Qapalı Səhmdar Cəmiyyəti, VÖEN 1002816161, 26.01.2013-cü il. |
| 2.emitentin hüquqi ünvanı və olduğu yer; | Azərbaycan Respublikası, AZ 1110, Bakı ş., Nəriman Nərimanov, AK, Həsən Əliyev, ev 86A |
| 3. adında dəyişikliklər olduqda, emitentin bütün əvvəlki adları, habelə onların qeydiyyata alındığı tarixlər, emitent digər hüquqi şəxsin bölünməsi və ya tərkibindən ayrılması şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxsin adı, emitent hüquqi şəxslərin birləşməsi və ya çevrilmə şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxslərin adları; | "Bank Olmayan Kredit Təşkilatı "İnternational" Qapalı Səhmdar Cəmiyyəti 26.01.2013-cü ildə dövlət qeydiyyatına alınmış BOKT "İnternational" MMC-nin hüquqi varisidir. |
| 4. emitentin hesabat dövrü ərzində yaranmış və ləğv edilmiş filialları və nümayəndəliklərinin adı, olduqları yer və qeydiyyatları haqqında məlumatlar; | Yaranmış filial-<br>1. Bakı şəhəri, Binəqədi filialı<br>2. Bakı şəhəri, Yasamal filialı<br>3. Beyləqan şəhəri, Beyləqan filialı<br>4. İmişli şəhəri, İmişli filialı<br>5. Şirvaan şəhəri, Şirvan filialı<br>6. Tovuz şəhəri, Tovuz filialı<br>7. Xaçmaz şəhəri, Xaçmaz filialı<br>Ləğv edilmiş filial-Yoxdur |
| 5.emitentin hesabat dövrü ərzində yaranmış və ya ləğv edilmiş hər bir törəmə cəmiyyətinin adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı, qeydiyyatı haqqında məlumatlar, nizamnamə kapitalında emitentin payı, hüquqi şəxsin emitentin törəmə cəmiyyəti hesab olunması üçün əsas olan müqavilənin bağlanma tarixi və qüvvədə olma müddəti; | Yoxdur; |
| 6.emitent şirkətlər qrupunun bir hissəsi olduğu təqdirdə qrupun (emitent daxil olmaqla iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən bir və ya daha artıq törəmə təşkilatı olan qrupdur) adı; | Emitent şirkətlər qrupuna daxil deyil. |
| 7.emitentin məşğul olduğu fəaliyyət istiqamətləri; | "BOKT "İnternational" QSC AR qanunvericiliyi ilə müəyyən edilmiş qaydada qısa və uzun müddətli, təminatlı və təminatsız kreditlər verə bilər.<br>Kreditlərin verilməsi üçün müvafiq lisenziyaya malik BOKT "İnternational" QSC, həmçinin, aşağıdakı fəaliyyət növlərini də həyata keçirə bilər:<br>- Borc öhdəliklərinin alqı-satqısı (faktorinq, forfeytinq);<br>- Lizinq;<br>- Veksellərin uçotu; |

| | |
|---|---|
| | - Qarantiyanın verilməsi;<br>- Sığorta agenti xidmətlərinin göstərilməsi;<br>- Borcalanlara, o cümlədən, birgə borcalan qruplarına maliyyə, texniki, idarəetmə və maliyyə məsələləri üzrə məsləhət xidmətinin göstərilməsi. |
| 8.emitent lisenziya və ya icazəyə malik olduqda, onlar üzrə fəaliyyət növləri və qüvvədə olma müddətləri; | "BOKT "İnternational" QSC AR qanunvericiliyi ilə müəyyən edilmiş qaydada qısa və uzun müddətli, təminatlı və təminatsız kreditlər verə bilər.<br>Kreditlərin verilməsi üçün müvafiq lisenziyaya malik BOKT "İnternational" QSC, həmçinin, aşağıdakı fəaliyyət növlərini də həyata keçirə bilər:<br>- Borc öhdəliklərinin alqı-satqısı (faktorinq, forfeytinq);<br>- Lizinq;<br>- Veksellərin uçotu;<br>- Qarantiyanın verilməsi;<br>- Sığorta agenti xidmətlərinin göstərilməsi;<br>- Borcalanlara, o cümlədən, birgə borcalan qruplarına maliyyə, texniki, idarəetmə və maliyyə məsələləri üzrə məsləhət xidmətinin göstərilməsi. |
| 9.emitentin təklif etdiyi məhsullar və xidmətlər; | "BOKT "İnternational" QSC AR qanunvericiliyi ilə müəyyən edilmiş qaydada qısa və uzun müddətli, təminatlı və təminatsız kreditlər verə bilər.<br>Kreditlərin verilməsi üçün müvafiq lisenziyaya malik BOKT "İnternational" QSC, həmçinin, aşağıdakı fəaliyyət növlərini də həyata keçirə bilər:<br>- Borc öhdəliklərinin alqı-satqısı (faktorinq, forfeytinq);<br>- Lizinq;<br>- Veksellərin uçotu;<br>- Qarantiyanın verilməsi;<br>- Sığorta agenti xidmətlərinin göstərilməsi;<br>- Borcalanlara, o cümlədən, birgə borcalan qruplarına maliyyə, texniki, idarəetmə və maliyyə məsələləri üzrə məsləhət xidmətinin göstərilməsi. |
| 10.emitentin işçilərinin sayı və onun rüblük dinamikası; | 252 nəfər, 1 |
| 11. emitentin idarəetmə orqanları haqqında məlumat: direktorlar şurası (müşahidə şurası) (olduqda), icra orqanı, audit komitəsi (olduqda), onların üzvlərinin adı, soyadı, atasının adı; | Müşahidə Şurası:<br>Həsənov Rifat Vaqif oğlu<br>Abdullayev Hikmət Fikrət oğlu<br>Allahverdiyev Aqşin İsa oğlu.<br>İdarə Heyətinin Sədri-Həsənov Nicat Vaqif oğlu.<br>Audit komitəsi<br>Həsənov Rifat Vaqif oğlu<br>Abdullayev Hikmət Fikrət oğlu<br>Allahverdiyev Aqşin İsa oğlu. |
| 12.emitentin fiziki və hüquqi şəxs olan səhmdarlarının (payçılarının) ayrı-ayılıqda sayı; | Fiziki şəxs-1<br>Həsənov Rifat Vaqif oğlu |

| | |
|---|---|
| 13. emitentin nizamnamə kapitalının beş faizi və daha artıq həcmdə səsli səhmlərinə (paylara) malik olan şəxslər (fiziki şəxsin soyadı, adı, atasının adı; hüquqi şəxsin adı, olduğu yer və VÖEN-i), onların hər birinə məxsus olan səhmlərin sayı (səhmlərin hər növü üzrə ayrıayrılıqda göstərilir) və emitentin nizamnamə kapitalında payı- | Həsənov Rifat Vaqif oğlu- 5 000 ədəd səhm, 100% |
| 14. nizamnamə kapitalında emitentin payı beş faizdən az olmayan hüquqi şəxslər (hüquqi şəxsin adı, olduğu yer, VÖEN-i, nizamnamə kapitalında emitentin payı)- | Yoxdur |
| 15.emitentin səhmdarlarının (payçılarının) hesabat dövrü ərzində keçirilmiş yığıncaqları barədə məlumat: yığıncağın keçirilmə tarixi və yeri (ünvan);ümumi yığıncaqda qəbul edilmiş qərarlar. | 03/22 saylı 23.05.2022-ci il tarixli Müşahidə Şurasının qərarı 7 ədəd yeni filialın açılması barədə<br>19.05.2022-ci il tarixli Səhmdarların Ümumi yığıncağın qərarına əsasən 2021-ci ilin sonuna divident çıxarılması barədə<br>30.06.2022-ci il tarixli Ümumi yığıncağın qərarına əsasən yarımillik hesabatların təsdiq edilməsi barədə<br>13.07.2022-ci il tarixli Müşahidə Şurasının qərarına əsasən Audit komitəsinin yaradılması barədə<br>10.11.2022-ci il tarixli Səhmdarların Ümumi yığıncağın qərarına əsasən 2022-ci il divident çıxarılması barədə |
| 16.emitentin dövriyyədə olan investisiya qiymətli kağızlarının buraxılışları haqqında məlumat (investisiya qiymətli kağızların hər buraxılışı ayrı-ayrılıqda göstərilir):<br><br>-investisiya qiymətli kağızın növü və forması;<br><br>- investisiya qiymətli kağızlar buraxılışının dövlət qeydiyyat nömrəsi və qeydiyyat tarixi;<br>- investisiya qiymətli kağızların miqdarı və nominal dəyəri;<br><br>-<br>- investisiya qiymətli kağızlar buraxılışının məcmu nominal dəyəri;<br><br>- hesabat ili ərzində emitent tərəfindən səhmlər üzrə ödənilmiş dividendlər<br><br>haqqında məlumat (hesabat ilində səhmlərin hər növü üzrə ödənilmiş dividendlərin məbləği göstərilir);<br>- faizli istiqrazlar buraxılışı haqqında məlumatda - istiqrazlar üzrə gəlirliyin illik faiz dərəcəsi; | 1.Sənədsiz , adi səhmlər;<br><br>AZ1001021026; 22 noyabr 2021-ci il;<br><br>Hər birinin nominal dəyəri 1000 (bir min) manat olan 5000 ədəd;<br><br>2.Faizli, təmin edilməmiş, sənədsiz, adlı İstiqrazlar;<br>AZ2001021024; 10 iyun 2020-ci il;<br>Hər birinin nominal dəyəri 1000 (bir min) manat; 3000 (üç min) ədəd;18%<br>3.AZ2002021023;<br>Hər birinin nominal dəyəri 1000 (bir min) manat; 6000 (altı min) ədəd;18%<br><br>4. AZ2003021022; 25 fevral 2022-ci il<br>Hər birinin nominal dəyəri 1000 (bir min) manat; 2000 (iki min) ədəd;14%<br><br>5. . AZ2004021021; 27 May 2022-ci il<br>Hər birinin nominal dəyəri 100 (bir yüz) manat; 20 000 (iyirmi min) ədəd;13%<br><br>6. . AZ2005021020; 11 Avqust 2022-ci il<br>Hər birinin nominal dəyəri 100 (bir yüz) manat; |

| | |
|---|---|
| - investisiya qiymətli kağızların yerləşdirildiyi və ya tədavüldə olduğu fond birjasının adı və olduğu yer (olduqda). | 20 000 (iyirmi min) ədəd;13%<br><br>7. 1 500 000 (bir milyon beş yüz min) AZN dividend ödənilib<br><br>8. Bakı Fond Birjası Qapalı Səhmdar Cəmiyyəti olduğu yer Bakı şəhəri, Yasamal rayonu, Həsənbəy Zərdabi 2A |
| 17.emitent tərəfindən bağlanılmış xüsusi əhəmiyyətli əqdlər barədə məlumatlar: əqdin məbləği; hesabat tarixinə əqdin ödənilməmiş hissəsi. | Yoxdur; |
| 18.emitent tərəfindən aidiyyəti şəxslərlə bağlanılmış əqdlər barədə məlumatlar:<br>- bağlanılmış əqdin mahiyyəti, tarixi və məbləği;<br>- aidiyyəti şəxs barədə məlumat və emitentlə aidiyyət əlaqəsi. | 1. Borc müqaviləsi – 150000 AZN 02.12.2022-ci il<br>2. Borc müqaviləsi - 150000 AZN 06.12.2022-ci il<br>3. Borc müqaviləsi - 200000 USD 27.12.2022-ci il |
| 19. hesabatın təsdiq edildiyi ümumi yığıncağın tarixi; | 16.06.2023-cü il |
| 20.hesabatın açıqlanma mənbəyi haqqında məlumat. | https://www.cbar.az/meas |

**BOKT "İnternational" QSC-nin**

**İdarə Heyətinin Sədri** **Nicat Həsənov**

**Maliyyə üzrə**

**baş direktor:** **Leyla Cabbarova**

# BOKT "İNTERNATİONAL"
# AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

**Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun hazırlanmış Maliyyə Hesabatları və Müstəqil Auditorların Rəyi**

31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə

# BOKT "İNTERNATİONAL" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

## MÜNDƏRİCAT


| | Səhifə |
|---|---|
| MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI | 1 |
| MÜSTƏQİL AUDİTORLARIN RƏYİ | 2-4 |
| 31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ MALİYYƏ HESABATLARI: | |
| Maliyyə vəziyyəti haqqında hesabat | 5 |
| Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat | 6 |
| Kapitalda dəyişikliklər haqqında hesabat | 7 |
| Pul vəsaitlərinin hərəkəti haqqında hesabat | 8-9 |
| Maliyyə hesabatları üzrə qeydlər | 10-52 |

**MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI**
**31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ**

Bu bəyannamə BOKT "İnternational" Açıq Səhmdar Cəmiyyətinin ("Təşkilat") maliyyə hesabatları ilə bağlı rəhbərliyin və müstəqil auditorların göstərilən məsuliyyətlərini fərqləndirmək məqsədi ilə hazırlanmışdır.

Rəhbərlik, 31 dekabr 2022-ci il tarixinə Təşkilatın maliyyə vəziyyətini, həmin tarixdə başa çatmış il üzrə əməliyyat nəticələrini, kapitalda dəyişiklikləri və pul vəsaitlərinin hərəkətini əks etdirən maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun şəkildə hazırlanması üçün məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik aşağıda göstərilənlər üzrə məsuliyyət daşıyır:

- Uyğun mühasibat prinsiplərinin seçilməsi və mütəmadi olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun təxminlərin və qərarların qəbul edilməsi;
- Maliyyə hesabatlarının MHBS-ə müvafiq hazırlanması və ya əgər hər hansı bir kənarlaşma varsa onun maliyyə hesabatlarında bəyan edilməsi və izahı; və
- Yaxın gələcəkdə Təşkilat işini normal şərtlər altında davam etdirdiyi halda, hesabat tarixinə maliyyə hesabatlarının fasiləsizlik prinsipi əsasında hazırlanması.

Rəhbərlik həmçinin aşağıdakı məsələlər üzrə məsuliyyət daşıyır:

- Təşkilat daxilində səmərəli və keyfiyyətli daxili nəzarət sisteminin işlənib hazırlanması, qurulması və möhkəmləndirilməsi;
- Təşkilatın maliyyə hesabatlarının MHBS-ə uyğun olaraq düzgün hazırlanması və Təşkilatın maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat sisteminin təşkil edilməsi;
- Yerli mühasibat sisteminin qanunvericilik və Azərbaycan Respublikasının mühasibat standartlarına uyğun olaraq təşkil edilməsi;
- Mümkün imkanlardan istifadə edərək Təşkilatın aktivlərinin mühafizə edilməsinin təşkil olunması; və
- Saxtakarlıq, yanlışlıq və digər qanuna uyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması.

31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə maliyyə hesabatları 19 iyun 2023-cü il tarixində Təşkilatın İdarə Heyəti tərəfindən təsdiq edilmişdir.

**İdarə Heyəti tərəfindən:**

| | |
|---|---|
| **Leyla Cabbarova** | **Mirabbas Əsgərov** |
| **İdarə Heyətinin üzvü** | **Baş mühasib müavini** |
| 19 iyun 2023-cü il | 19 iyun 2023-cü il |
| Bakı, Azərbaycan Respublikası | Bakı, Azərbaycan Respublikası |

## MÜSTƏQİL AUDİTORLARIN RƏYİ

BOKT "İnternational" Açıq Səhmdar Cəmiyyətinin Səhmdarı və Müşahidə Şurası və Rəhbərliyinə:

***Rəy***

Biz BOKT "İnternational" Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra "Təşkilat") 31 dekabr 2022-ci il tarixinə təqdim edilən maliyyə vəziyyəti haqqında hesabatdan, həmin tarixdə başa çatmış il üzrə mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatdan və pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Bizim rəyimizə əsasən, əlavə edilmiş maliyyə hesabatları Təşkilatın 31 dekabr 2022-ci il tarixinə olan maliyyə vəziyyətini, habelə göstərilən tarixdə başa çatmış il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.

***Rəy üçün Əsaslar***

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun olaraq aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə Hesabatlarının Auditi üzrə Auditorun Məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq Təşkilatdan asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Əsas Audit Məsələləri**

Əsas audit məsələləri bizim peşəkar mülahizəmizə əsasən, cari dövrün maliyyə hesabatlarının auditi zamanı ən çox əhəmiyyət kəsb edən məsələlərdir. Bu məsələlər ümumilikdə maliyyə hesabatlarının auditi çərçivəsində və bu hesabatlarla bağlı rəyimizin formalaşdırılması zamanı nəzərə alınmışdır və və biz bu məsələlərlə bağlı ayrıca rəy bildirmirik.

*Əsas audit məsələləri*

*Müştərilərə verilmiş kreditlər və avanslar üzrə ehtimal olunan kredit zərəri ehtiyatı*

Müştərilərə verilmiş kreditlər və avanslar 2022-ci ilin dekabr ayının sonuna cəmi aktivlərin 84.9%-ni təşkil edir və müntəzəm olaraq təxmin edilən və istifadə edilən fərziyyələrə qarşı həssas olan ehtimal olunan kredit zərərləri ("EOKZ") üzrə ehtiyat çıxılmaqla qiymətləndirilir.

Ehtimal olunan kredit zərərlərinin qiymətləndirilməsi rəhbərlikdən defolt ehtimalını (DE), defolt vəziyyətində riskə məruz qalma riskini (DVRMQ) və defolt zamanı yaranan zərəri (DZYZ) müəyyən etmək üçün müşahidə edilən tarixi məlumatları, cari iqtisadi vəziyyəti və mövcud perspektivli məlumatları nəzərə alaraq əhəmiyyətli mülahizələri və qiymətləndirmə üsullarını tətbiq etməyi tələb edir.

Müştərilərə verilmiş kreditlər və avanslar üzrə kredit zərəri ehtiyatı Təşkilatın maliyyə aktivlərinin qalıqlarının əhəmiyyətli olması və "Maliyyə Alətləri" adlı 9 saylı MHBS üzrə EOKZ məbləğinin hesablanmasının mürəkkəbliyi və mülahizələrə görə əsas audit məsələsi hesab edilir.

*Audit zamanı bu məsələ necə nəzərdən keçirilmişdir?*

Biz "Maliyyə Alətləri" adlı 9 saylı MHBS-in tələblərinə uyğunluğun EOKZ qiymətləndirməsi ilə bağlı Təşkilatın metodologiyası və daxili qaydalarının əsas aspektlərini təhlil etmək üçün maliyyə risklərinin idarə edilməsi üzrə öz mütəxəssislərimizi cəlb etmişdik.

Peşəkar mülahizələrin uyğunluğu və EOKZ ehtimalları ilə bağlı rəhbərlik tərəfindən irəli sürülən fərziyyələrin uyğunluğunu təhlil etmək üçün biz aşağıdakı prosedurları həyata keçirmişdik:

Biz, müştərilərə verilən kreditlər və avanslar üzrə DE, DZYZ və DVRMQ hesablanması, gecikmələrin və kredit ödənişlərinin əsas sistemlərdə vaxtında əks olunması və kreditlərin müvafiq mərhələlərə bölüşdürülməsi üçün məlumatların düzgünlüyünü sınaqdan keçirmişik. Biz nümunə əsasında dəstəkləyici sənədlərə daxil edilmiş məlumatları razılaşdırmışıq.

Biz həmçinin maliyyə hesabatlarının açıqlanmasının Təşkilatın kredit riskinə məruz qalmasını lazımi şəkildə əks etdirib-etdirmədiyini qiymətləndirmişdik.

***Digər Məsələ***

Təşkilatın 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə maliyyə hesabatları 25 aprel 2022-ci il tarixində həmin maliyyə hesabatları üzrə şərtsiz müsbət rəy bildirmiş başqa auditor tərəfindən yoxlanılmışdır.

31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə maliyyə hesabatlarının auditinin bir hissəsi olaraq, biz həmçinin 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə maliyyə hesabatlarına tətbiq edilmiş və 5 saylı Qeyddə təsvir edilmiş düzəlişlərin auditini aparmışıq. Biz düzəlişlər istisna olmaqla (əgər varsa), Təşkilatın 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə maliyyə hesabatlarının auditini aparmamışıq, müvafiq olaraq bütövlükdə həmin maliyyə hesabatlarına dair rəy və ya hər hansı digər əminlik formasını təqdim etmirik.

***Maliyyə Hesabatlarına görə Rəhbərliyin və Audit Komitəsinin Məsuliyyəti***

Rəhbərlik maliyyə hesabatlarının MHBS-ə uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Təşkilatı ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Təşkilatın fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

Audit Komitəsi Təşkilatın maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

***Maliyyə Hesabatlarının Auditinə görə Auditorların Məsuliyyəti***

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olub-olmamasına dair kafi əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin bu səviyyədə olan əminlik də əhəmiyyətli təhriflərin mövcud olduğu hallarda, BAS-a uyğun olaraq aparılmış auditin belə təhrifləri həmişə aşkarlayacağına zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya xətalar nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə hazırlanmış maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

Audit zamanı biz BAS-ın tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi peşəkar mühakimə tətbiq edir və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olması risklərini müəyyən edərək qiymətləndirir, bu risklərə cavab verən audit prosedurlarını layihələndirərək həyata keçirir və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib olan audit sübutları əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranan əhəmiyyətli təhrifləri aşkarlamamaq riski xətalar nəticəsində yaranan əhəmiyyətli təhrifləri aşkarlamamaq riskindən daha yüksəkdir, çünki fırıldaqçılıq, sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər;
- Təşkilatın daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun olan audit prosedurlarının işlənib hazırlanması üçün daxili nəzarət sistemi barədə anlayış əldə edirik;
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məqsədəuyğunluğunu qiymətləndiririk;
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutları əsasında Təşkilatın fəaliyyətini fasiləsiz davam etdirmək imkanını ciddi şübhə altına qoya bilən hadisə və ya şərtlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmamasına dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməli və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Bununla belə, gələcək hadisə və ya şərtlər Təşkilatın fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər;
- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli şəkildə təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddəti, habelə əhəmiyyətli audit nəticələri, o cümlədən audit apardığımız zaman daxili nəzarət sistemində aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında Audit Komitəsinə məlumat veririk.

19 iyun 2023-cü il
Bakı, Azərbaycan Respublikası

# BOKT "İNTERNATİONAL" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

## MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT
## 31 DEKABR 2022-Cİ İL TARİXİNƏ
*(Əksi göstərilmədiyi təqdirdə, Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il (yenidən təqdim edilmiş) |
|---|---|---|---|
| **AKTİVLƏR:** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 6 | 455,770 | 702,691 |
| Müştərilərə verilmiş kreditlər və avanslar | 7, 20 | 24,602,159 | 17,751,578 |
| Əmlak və avadanlıqlar | 8 | 584,760 | 619,967 |
| Qeyri-maddi aktivlər | 8 | 45,486 | 53,157 |
| İstifadə hüququ olan aktivlər | 8 | 1,540,191 | 673,333 |
| Səhmdarla hesablaşmalar | 20 | 1,500,000 | - |
| Təxirə salınmış mənfəət vergisi aktivi | 19 | 211,221 | 120,584 |
| Digər aktivlər | 9 | 21,862 | 18,297 |
| **Cəmi aktivlər** | | **28,961,449** | **19,939,607** |
| **ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | | |
| **ÖHDƏLİKLƏR:** | | | |
| Borc alınmış vəsaitlər | 10, 20 | 5,587,655 | 6,803,057 |
| Buraxılmış borc qiymətli kağızları | 11, 20 | 15,020,223 | 6,609,303 |
| İcarə öhdəlikləri | 12 | 1,673,900 | 721,278 |
| Vergi öhdəliyi | | 326,481 | 162,340 |
| Digər öhdəliklər | 13, 20 | 306,248 | 259,578 |
| **Cəmi öhdəliklər** | | **22,914,507** | **14,555,556** |
| **KAPİTAL:** | | | |
| Nizamnamə kapitalı | 14 | 5,000,000 | 5,000,000 |
| Bölüşdürülməmiş mənfəət | | 1,046,942 | 384,051 |
| **Cəmi kapital** | | **6,046,942** | **5,384,051** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **28,961,449** | **19,939,607** |

**İdarə Heyəti tərəfindən:**

**Leyla Cabbarova**
**İdarə Heyətinin üzvü**

19 iyun 2023-cü il
Bakı, Azərbaycan Respublikası

**Mirabbas Əsgərov**
**Baş mühasib müavini**

19 iyun 2023-cü il
Bakı, Azərbaycan Respublikası

10-52-ci səhifələrdəki qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

## MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİR HAQQINDA HESABAT
## 31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(Əksi göstərilmədiyi təqdirdə, Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə (yenidən qiymətləndirilmiş) |
|---|---|---|---|
| Faiz gəlirləri | 15, 20 | 11,541,758 | 8,105,149 |
| Faiz xərcləri | 15, 20 | (2,853,651) | (1,923,504) |
| **Xalis faiz gəliri** | 15 | **8,688,107** | **6,181,645** |
| Maliyyə aktivləri üzrə ehtimal olunan kredit zərərlərinin tutulması | 7, 20 | (891,896) | (572,280) |
| **Xalis faiz gəliri** | | **7,796,211** | **5,609,365** |
| Haqq və komissiya gəliri | 16 | 253,508 | 198,409 |
| Haqq və komissiya xərci | 17 | (101,957) | (103,722) |
| **Xalis faiz gəliri** | | **151,551** | **94,687** |
| İnsan resursları üzrə xərclər | 20 | (3,209,902) | (2,422,601) |
| İnzibati və əməliyyat xərcləri | 18 | (2,775,132) | (2,751,634) |
| Digər gəlirlər | | 10,730 | 2,023 |
| **Mənfəət vergisindən xərcindən əvvəlki mənfəət** | | **1,973,458** | **531,840** |
| Mənfəət vergisi xərci | 19 | (443,424) | (121,287) |
| **İl üzrə xalis mənfəət** | | **1,530,034** | **410,553** |
| **İl üzrə cəmi məcmu gəlir** | | **1,530,034** | **410,553** |
| **Təşkilatın sahiblərinə aid olan, əsas və azaldılmış bir səhm üzrə mənfəət (hər səhm üzrə AZN ilə ifadə olunur)** | 25 | **306.01** | **82.11** |

**İdarə Heyəti tərəfindən:**

**Leyla Cabbarova**
**İdarə Heyətinin üzvü**

19 iyun 2023-cü il
Bakı, Azərbaycan Respublikası

**Mirabbas Əsgərov**
**Baş mühasib müavini**

19 iyun 2023-cü il
Bakı, Azərbaycan Respublikası

10-52-ci səhifələrdəki qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

# BOKT "İNTERNATİONAL" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

## KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT
## 31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

*(Əksi göstərilmədiyi təqdirdə, Azərbaycan manatı ilə)*

| | Nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət/(zərər) | Cəmi kapital |
|---|---|---|---|
| **1 yanvar 2021-ci il** | **3,000,000** | **(26,502)** | **2,973,498** |
| İl üzrə cəmi məcmu gəlir | - | 410,553 | 410,553 |
| Nizamnamə kapitalında artım | 2,000,000 | - | 2,000,000 |
| **31 dekabr 2021-ci il** | **5,000,000** | **384,051** | **5,384,051** |
| İl üzrə cəmi məcmu gəlir | - | 1,530,034 | 1,530,034 |
| Elan edilmiş dividendlər | - | (867,143) | (867,143) |
| **31 dekabr 2022-ci il** | **5,000,000** | **1,046,942** | **6,046,942** |

**İdarə Heyəti tərəfindən:**

**Leyla Cabbarova**
**İdarə Heyətinin üzvü**

19 iyun 2023-cü il
Bakı, Azərbaycan Respublikası

**Mirabbas Əsgərov**
**Baş mühasib müavini**

19 iyun 2023-cü il
Bakı, Azərbaycan Respublikası

10-52-ci səhifələrdəki qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

# BOKT "İNTERNATİONAL" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
## 31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(Əksi göstərilmədiyi təqdirdə, Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə (yenidən qiymətləndirilmiş) |
|---|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ** | | | |
| Mənfəət vergisindən əvvəl mənfəət | | 1,973,458 | 531,840 |
| **Nağdsız və qeyri-əməliyyat maddələri üzrə düzəlişlər:** | | | |
| Müştərilərə verilmiş kreditlər və avanslar üzrə ehtimal olunan kredit zərərlərinin tutulması | 7 | 891,896 | 572,280 |
| Köhnəlmə və amortizasiya xərci | 8 | 742,771 | 456,750 |
| İstifadə olunmamış məzuniyyət ehtiyatında dəyişiklik | | 36,633 | 75,484 |
| Hesablanmış faiz üzrə xalis dəyişiklik | | (193,141) | 358,282 |
| İcarə öhdəliklərinin ləğv edilməsindən yaranan gəlir | | (10,730) | (2,023) |
| **Əməliyyat aktivləri və öhdəliklərində dəyişikliklər:** | | | |
| Müştərilərə verilmiş kreditlər və avanslar | | (7,532,338) | (6,303,527) |
| Digər aktivlər | | (3,565) | (3,073) |
| Vergi öhdəlikləri | | (744) | 444 |
| Digər öhdəliklər | | 10,037 | (302,993) |
| **Əməliyyat fəaliyyətinə yönəlmiş pul vəsaitləri** | | **(4,085,723)** | **(4,616,536)** |
| Ödənilmiş mənfəət vergisi | | (369,176) | (74,997) |
| **Əməliyyat fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri** | | **(4,454,899)** | **(4,691,533)** |
| **İNVESTİSİYA FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ** | | | |
| Əmlak və avadanlıqların satın alınması | | (282,528) | (94,997) |
| Qeyri-maddi aktivlərin satın alınması | | - | (38,200) |
| İcarə hüququ olan aktivlər üçün ilkin ödəniş | | - | (2,951) |
| **İnvestisiya fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri** | | **(282,528)** | **(136,148)** |
| **MALİYYƏ FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ** | | | |
| Cəlb olunmuş vəsaitlər üzrə daxilolmalar | 10 | 4,536,367 | 6,749,509 |
| Cəlb olunmuş vəsaitlərin ödənilməsi | 10 | (5,741,847) | (5,446,368) |
| Buraxılmış istiqrazlardan daxilolmalar | 11 | 9,074,000 | 3,606,000 |
| Buraxılmış istiqrazların ödənilməsi | 11 | (690,000) | (1,890,400) |
| İcarə öhdəliyinin əsas hissəsinin ödənilməsi | 12 | (320,871) | (119,380) |
| Səhmdarlara ödənilmiş dividendlər | | (867,143) | - |
| Səhmdara ödənilmiş digər vəsaitlər | | (1,500,000) | - |
| Nizamnamə kapitalındakı artım | | - | 2,000,000 |
| **Maliyyə fəaliyyətindən daxil olan xalis pul vəsaitləri** | | **4,490,506** | **4,899,361** |

**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT**
**31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ (Davamı)**
*(Əksi göstərilmədiyi təqdirdə, Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə (yenidən qiymətləndirilmiş) |
|---|---|---|---|
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis (azalma)/artım** | | **(246,921)** | **71,680** |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin əvvəlinə* | 6 | 702,691 | 631,011 |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin sonuna* | 6 | 455,770 | 702,691 |

31 dekabr 2022-ci il tarixində başa çatmış il ərzində Təşkilat tərəfindən ödənilmiş və alınmış faizlər müvafiq olaraq 2,836,653 AZN və 11,331,619 AZN təşkil etmişdir (31 dekabr 2021-ci il: müvafiq olaraq 1,948,673 AZN və 8,488,600 AZN).

**İdarə Heyəti tərəfindən:**

**Leyla Cabbarova**
**İdarə Heyətinin üzvü**

19 iyun 2023-cü il
Bakı, Azərbaycan Respublikası

**Mirabbas Əsgərov**
**Baş mühasib müavini**

19 iyun 2023-cü il
Bakı, Azərbaycan Respublikası

10-52-ci səhifələrdəki qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.